# NAXÇIVANDA DASTAN YARADICILIĞI

**Azərbaycan aşıq yaradıcılığının Naxçıvan mühiti, təbii ki, dastan yaradıcılığı ilə də bağlıdır. Naxçıvanın bəzi ustad aşıqlarının dastan yaradıcılığı da olub.**

● **Yusif SƏFƏROV,**
*filologiya elmləri doktoru*



Bunların sırasında Ordubadlı Kərim, Ağ Aşıq Kosacanlı, Çobankərəli Cəfər, Aşıq Məmmədcəfər və b. göstərmək olar. "Ordubadlı Kərim" yaxud "Kərim-Süsən", "Ağ Aşıq-Sünbər", "Hüseyn-Reyhan", "Ziyad-Şövkət" dastanları bu və digər dərəcədə Naxçıvan aşıq mühitilə bağlıdır. "Bu dastanlardan eləsi var ki, həm yaradıcı müəllifinə, həm də tarixi coğrafiyasına görə Naxçıvanla bağlıdır.

Eləsi də var ki, coğrafiyasına görə müəyyən qədər Naxçıvanla əlaqəlidir. Məsələn, "Hüseyn-Reyhan" Aşıq Hüseyn Şəmkirlinin yaratdığı dastan olmaqla hadisələrinin müəyyən hissəsinə görə Naxçıvan bölgəsilə bağlıdır (3, s. 7). "Ziyad-Şövkət" coğrafi baxımdan regionla bağlı olmasa da Naxçıvanda yaranmışdır.

"Ordubadlı Kərim" dastanının bir neçə variantı məlumdur. Bunlardan biri haqqında prof. M. H. Təhmasib məlumat vermişdir (5, s. 304, 305). Dastanın bir variantını da folklorşünas Ə. Axundov "Kərim-Süsən" adı ilə çap etdirmişdir (1, s. 212-217). Araşdırmalar göstərir ki, dastan vaxtilə geniş yayılsa da, sonralar nədənsə müəyyən dərəcədə unudulmuşdur. Hazırda das-

tana Şirvan aşıqlarının ifasında rast gəlmək mümkündür. Dastanın bir variantı istisna olmaqla, variantların hamısında dastan qəhrəmanı ordubadlıdır. Dastanın mövzu və məzmunu, bədii dəyəri haqqında əvvəl apardığımız bir tədqiqatda geniş bəhs edildiyindən burada onunla bağlı bəzi məlumatları nəzərdən keçirməklə kifayətlənirik.

Dastanın bugünkü vəziyyətində hansı əsrlərdə yarandığını müəyyən etmək çətindir. Bəzi ehtimallar dastanın Ordubadlı Kərim tərəfindən yaradıldığını göstərir. Əvvəlki araşdırmalara əsasən demək olar ki, "Ordubadlı Kərim" dastanı ən geci, bizə isə ən yaxını XVIII əsrdən sonra yarana bilməzdi (3, s. 99). Ordubadlı Kərimlə bağlı rəvayətlərin tədqiqi də bu ehtimala inamı artırır. Eləcə də, Ordubadlı Kərimin dilindən deyilən bir şeir nümunəsi də bunu təsdiqləyir.

*Sən mənim sultanım, sən mənim xanım,*
*Sənə qurban olsun bu şirin canım.*
*Adım Xan Kərim, Ordubad məkanım,*
*Getmə ay qız, sənlə söhbət eləyim* (4, s. 20).

"Ordubadlı Kərim" adlı variantda "buta" məsələsi unudulub. Bu dastanın çox təhrif olunduğundan irəli gəlib. Dastanda rəvayətlərdən fərqli olaraq Kərimin şüursuz, fərsiz bir gənc kimi təsvir olunması da bu ziddiyyətin nədən doğduğunu aydınlaşdırmağa imkan verir.

Doğrudan da, "Kərimin rəvayətdəki gəncliyinin əksinə dastandakı gəncliyi çox şüursuzdur. O, mollaxanada əlif-beyi belə öyrənə bilmir. Bu hal dastanın bir variantında buta alanadək davam edir. Buta aldıqdan sonra Kərimin gəncliyi, mənəvi aləmi dəyişir" (3, s. 100). Bir çox dastan qəhrəmanları kimi, o, ağıllı bir gənc, "haqq aşiqi", istedadlı şair-aşıq olur. "Kərim-Süsən" variantında "buta" məsələsinin unudulduğunu dastanın özündəki bir şeir nümunəsi də təsdiq edir .

*Ata, Kərim düz deyədi,*
*Qara bağra duz dəyədir,*
*Gecə-gündüz gözdiyədi,*
*Süsən adlı butam mənim.*

Bu şeir parçası istisna olmaqla adı çəkilən dastanda bir kəlmə də olsun "buta" sözü işlənmir.

Əksər folklorşünaslar dastan qəhrəmanlarını həmin dastanların yaradıcısı hesab edirlər. Araşdırma göstərir ki, haqqında danışdığımız dastanı da Ordubadlı Kərim yaratmışdır. Dastan təhrif olunsa da, ərazi bağlılığını ad və məzmununda, bəzi şeirlərində qoruyub saxlamışdır.

"Ağ Aşıq-Süsənbər" dastanının qısa məzmununa görə, Şərurun Kosacan kəndində yaşayan Qara Osmanoğlunun dərdi övladsızlıq dərdi idi. O, yuxuda aldığı vədə görə Araz çayının qırağındakı dağdağan ağacının yerini dəyişib, onu selin yuyub aparmasından qorumalıdır. Bu xeyirxah əməldən sonra onun bir oğlu olur.

Allahverdi adlandırılan bu uşaq böyüyüb sazasözə yiyələnir və Arazın cənubundakı kəndlərdən birində yaşayan Süsənbər adlı qızla evlənir. Xeyli müddətdən sonra Arazdəyəndə şah qoşunlarının törətdiyi talanlar nəticəsində Ağ Aşıq Allahverdi Kosacandan Göyçənin Kərkibaş kəndinə köçməyə məcbur olur. Az sonra Sərdar Hüseynin fərmanına görə, fərraşları onu məcburi Ruma aparırlar. Onun sazı-sözü xəstə Sərdarı sağaldır. Sərdarın iznindən sonra Ağ Aşıq Allahverdi yaşadığı Kərkibaş kəndinə qayıdır.

Araşdırma və müşahidələr göstərir ki, tərcümeyi-hal xarakterli bu dastan Kosacanlı Ağ Aşıqla bağlı hadisələr və özünün şeirləri əsasında yaradılmışdır. Daha doğrusu, dastanı Kosacanlı Ağ Aşıq yaratmışdır.

Dastanda Ağ Aşığın atası Qara Osmanoğlu xeyirxah bir insan olmaqla həm də aşıqdır. Əvvəlki tədqiqatlardan birində dediyimiz kimi, Qara Osmanoğlu, Ağ Aşıq, arvadı Süsənbər xanım, oğlanları Məhərrəm və İsmayıl tarixi şəxsiyyətlərdir (3, s. 104).

Ağ Aşıqla bağlı prof. M. Həkimov iki hadisə üzərində dayanmışdır. Bunlardan birinə görə, Ağ Aşıq rus çarının fərmanı ilə Peterburqa aparılmışdır. Lakin müəllif bundan sonrakı araşdırmasında belə qənaətə gəlmişdir ki, aşıq Ruma aparılmışdır (6, s. 52). Bununla aşığın dastanda Ruma aparılma fikri təsdiqini tapmışdır.

Dastanda gerçəkliklə səsləşən şeirlər çoxdur. Birində deyilir:

*Dağ çəkildi Naxçıvana, Sulduza,*
*Duz nədir ki, həsrət qala el duza.*
*Axund, molla, seyid dönüb quduza*
*Elin sərvətini hara çəkirlər?*

Aşıq dastanda qürbət həyatı ilə bağlı deyir:
*Yandı qürbət eldə dilim-dodağım,*
*Çatıb Alosmana sözüm-sorağım,*

Ümumiyyətlə, dastanda aşığın dövrdən şikayəti, üzləşdiyi ədalətsizlik, bunlarla bağlı şeir və bayatılar, təsirli məqamlar az deyil. Qeyd etməliyik ki, dastan müəyyən dərəcədə Şərur mühitilə bağlıdır. Dastanın əvvəlində xatırlanan hadisələr coğrafi cəhətdən Şərur ərazisində baş verir.

"Hüseyn-Reyhan", bəzən də "Reyhanın nağılı" adlanan bu dastanın qısa məzmununa görə 18 aşığı dustaq etmiş Reyhan xanımı bağlamaq üçün Kalbalıxan Aşıq Hüseyn Şəmkirlini Naxçıvana dəvət edir. Ustadından, anasından izn alan Aşıq Hüseyn Naxçıvana gəlir. Xan ona ziyafət verir. Sonra məclis qurulur. Aşıqlar arasında hərbə-zorba ilə deyişmə baş verir. Deyişmədə Reyhan xanım məğlub olur, 18 aşıq dustaqlıqdan azad edilir (2, s. 197-220).

Aşıq Hüseynin dastan yaradıcılığında Naxçıvan müəyyən yer tutur. Bu həm də sənətkarın regionla sənət əlaqələrindən irəli gəlmişdir. Haqqında danışılan dastanın da süjet xətti Şəmkirlə Naxçıvan arasında qurulub. Ənənəyə görə, Aşıq Hüseyn də bölgəyə gəlmək üçün dəvət almışdır.

***Namə yetər olsan Aşıq Hüseynə,***
***Saz götürüb Naxçıvana de, gəlsin!***
***Aşıqlıq elmindən xəbərdar isə,***
***Qəvvas kimi bu ümmanə de, gəlsin!***

Bizcə, dastandakı Kalbalıxan Ehsan xanın oğludur. Tədqiqatlardan birində demişik ki, Aşıq Hüseyn bu dastanı 1866-cı ildən sonra, yəni Naxçıvana etdiyi səfərdən sonra yaratmışdır. Həm də indi əldə olan nüsxədən geniş və mükəmməl şəkildə (3, s. 111).

Haqqında müxtəsər danışılacaq "Ziyad-Şövkət" dastanının yaradıcısı çobankərəli Aşıq Cəfərdir. Dastanı Aşıq Cəfər indiki Ermənistan (Qərbi Azərbaycan) ərazisindən Naxçıvanın Şıxmahmud kəndinə köçdüyü 1922-ci ildən sonra yaratmışdır. Vaxtilə "biz də dastanın Aşıq Cəfər tərəfindən yaradıldığını 1980-1985-ci illərdə Naxçıvan-Şərur aşıqlarından eşitmişik. Buna görə, dastandan Naxçıvan aşıq ədəbi mühitində yaranmış nümunə kimi danışmağı məqsədyönlü hesab edirik" (3, s. 112).

Dastanın qısa məzmununa görə, Ərdəbildə Fətəli xanın Şövkət adlı qızı, Xəlil adlı naxırçının da Ziyad adlı oğlu var idi. Ziyadla Şövkət aralarında əhdpeyman bağlamışdılar. Ziyad naxırçı oğlu olduğundan atası Fətəli xanın qapısına elçi gedə bilmir. Bu vaxt Ziyadın əlindən təsadüfən baş verən xəta vəziyyəti daha da mürəkkəbləşdirir.

Ziyad qaçqın düşür, ata-anası zindana salınır. Lakin bir müddət qəriblik həyatı keçirən Ziyad geri dönür, görülən tədbirlər nəticəsində ata-anasını zindandan azad etdirə bilir. Sonra qarşıya çıxan çətin maniələr Şah Abbasın köməyilə aradan qaldırılır, hər iki gənc evlənir.

"Ziyad-Şövkət" dastanı klassik dastanlarımızla bir səviyyədə durmasa da məzmunca yığcam və bitkindir. Bir çox dastan müəlliflərindən fərqli olaraq burada Aşıq Cəfər yaratdığı dastanın qəhrəmanı deyil. Müəllifin dastanı başqa dastanlardan istifadə etmə yolu, yaxud sərbəst yaradıcılıq üsulu ilə yaratdığını da demək çətindir.

Müşahidə göstərir ki, bu iki üsulun ikisindən də dastanda istifadə edilib. Dastanda Şövkətin Şah Abbasa kömək üçün müraciət etməsi bizə "Abbas-Gülgəz" dastanını xatırladır. Buna əsasən demək olar ki, "Ziyad-Şövkət" dastanının yaradılmasında "Abbas-Gülgəz" dastanının süjet və quruluşundan istifadə edilmişdir (3, s. 113). Dastan yaradıcılığı elədir ki, aşıq-sənətkar özündən əvvəlki klassik dastanlardan bəhrələnərək, onların ayrı-ayrı surət və epizodlarından istifadə edə bilər.

Şah Abbas surətinin dastanda iştirakına görə deməliyik ki, sənətkar-aşıq hadisələri Şah Abbas hakimiyyəti illərilə əlaqələndirib. Bu, dastandakı problemin həlli yolunun Şah Abbas obrazı vasitəsilə mümkünlüyündən irəli gəlir. Dastan isə, deyildiyi kimi, bundan çox sonra XX əsrin birinci yarısında yaradılmışdır.

**Müxtəsər də olsa qeyd etmək lazımdır ki, "Ordubadlı Kərim", "Ağ Aşıq-Süsənbər", "Hüseyn-Reyhan", "Ziyad-Şövkət" kimi məhəbbət dastanlarının tədqiqi Naxçıvan aşıq mühitinin bu irslə sıx bağlı olduğunu təsdiq edir. Bir daha məlum olur ki, Naxçıvan aşıq mühitində aşıq şeirinin müxtəlif formaları, çoxsaylı saz havaları ilə yanaşı, dastan yaradıcılığı da inkişaf etmişdir. Ustad-yaradıcı aşıqlar klassik ənənələrdən faydalanaraq yaratdıqları maraqlı əsərlər ilə dastan yaradıcılığımıza dəyərli töhfələr vermişlər.**

## Ədəbiyyat


1. Azərbaycan xalq dastanları, I c., Bakı, 1961.
2. Azərbaycan xalq dastanları, Bakı, 1980.
3. Səfərov Y. Naxçıvan aşıq ədəbi mühiti, Bakı, 2009.
4. Səfərov Y. Naxçıvan aşıq mühiti, "Naxçıvan" jurn., 2010, N22.
5. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı, 1972.
6. Ustad aşıqlar, Bakı, 1983.